**UOT: 331.01**

***Cəmilə Elçin qızı QULİYEVA***
***Bakı Dövlət Universitetinin***
***"Beynəlxalq münasibətlər və iqtisadiyat"***
***fakültəsinin II kurs magistrantı***
***calalzadecamila@gmail.com***
***Elmi rəhbər: prof. M.R.TAĞIYEV***

# REGİONLARDA SOSİAL İNFRASTRUKTUR SAHƏLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – regionlarda sosial sahələrin inkişaf istiqamətlərini, əldə olunmuş nəticələri təhlil edərək, gələcək perspektivləri müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – mövzunun araşdırılması zamanı statistik, təhlil, müqayisə, şərh, ümumiləşdirmə, sistemləşdirmə kimi metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** buradakı faktların təhlili, nəticə və ümumiləşdirmələr gələcəkdə yazılan məqalələrin, monoqrafiya və dərsliklərin tərtib olunmasında, regionların inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsində, proqram və konsepsiyaların hazırlanmasında istifadə edilə bilər. Eyni zamanda, bu sahədə araşdırma aparmaq istəyənlər üçün istiqamətverici rol oynaya bilər.

**Tədqiqatın nəticələri** – Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarında əhalinin sosial rifahının yaxşılaşdırılması, sosial infrastruktur sahələrinin inkişafı ilə bağlı müəyyən tədbirlər planının icrası nəzərdə tutulmuşdur. Nəzərdə tutulan işlərin həyata keçirilməsi nəticəsində bir çox nailiyyətlər əldə edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Milli iqtisadiyyatın hüquqi tənzimlənməsi ilə bağlı yazılan bir sıra əsərlər, məqalələr olsa da, bu mövzuya həsr edilmiş fundamental əsər yoxdur. Respublikamızda iqtisadiyyatın müxtəlif sahələrinin hüquqi tənzimlənməsini əks etdirən tədqiqat əsərləri olsa da, regionların sosial-iqtisadi inkişafı bütövlükdə problematik olaraq tədqiqat obyekti olmamışdır. İlk dəfə bu mövzu vahid şəkildə qanunvericilik bazası və statistik analiz əsasında araşdırılmaqdadır.

***Açar sözlər: regionlar, sosial-iqtisadi inkişaf, dövlət siyasəti, sosial infrastruktur.***

## *Giriş*

İstər iqtisadi, istərsə də sosial sahədə regionlararası disproporsiyaların olması ölkə iqtisadiyyatına böyük ziyan vurur. Odur ki, bunun qarşısını almaq dövlətin regional siyasətinin əsasını təşkil edir. Qeyd etdiyimiz kimi, dövlətin regional inkişaf siyasətinin əsas tərkib hissəsini və mühüm bir istiqamətini regionların sosial inkişafının təmin edilməsi təşkil edir. Çünki, sosial infrastrukturun inkişaf səviyyəsi başdan-başa iqtisadi göstəricilərlə regionun iqtisadiyyatına böyük təsir etməsinə görə mühüm əhəmiyyət kəsb edir. Beləliklə, sosial infrastrukturun regional inkişaf səviyyəsi həmin regionların iqtisadi inkişafı ilə birbaşa bağlıdır. Sosial infrastrukturun inkişaf səviyyəsi aşağı olarsa, istehsal da buna uyğun olaraq, ləng inkişaf edir, nəticədə region əhalisinin həyat səviyyəsi də aşağı düşür. Bunun əksinə, sosial infrastrukturun regional inkişaf səviyyəsinin artırılması həmin regionlara investisiya cəlb edərək iqtisadi inkişafını sürətləndirmiş olur. Beləliklə, sosial infrastrukturun regionlarda inkişafı zərurəti meydana çıxır. Nəticədə sosial infrastrukturun regional inkişafı ölkənin sosial-iqtisadi inkişafında əsas rol oynayır.

**Sosial infrastruktur sahələrinin inkişaf istiqamətləri**

Hər bir dövlətin, eləcə də cəmiyyətin inkişafı sosial siyasətin düzgün və məqsədli şəkildə həyata keçirilməsindən asılıdır. Bu da müasir dövrdə sosial infrastrukturun inkişafını aktual edən məsələlərdən biri və başlıcasıdır. Sosial infrastruktur sosial siyasətin maddi əsasını təşkil etməklə yanaşı,

sosial siyasətin əsas məqsədlərindən birini təşkil edir. Sosial infrastruktura maddi, mənəvi və sosial sahələrin qarşılıqlı şəkildə və kompleks halında məcmusu aiddir. Onun əsasını qeyri-maddi istehsal sahələri təşkil edir ki, buraya elm, təhsil, səhiyyə, mədəniyyət və mənzil-kommunal təsərrüfatı, nəqliyyat ilə rabitə, sosial müdafiə kimi digər sosial xidmət sahələri aiddir. Sosial infrastrukturun inkişafı insanların rifah halının yaxşılaşdırılması, həyat keyfiyyətinin yüksəldilməsi üçün zəruri məsələlərdən biridir.

Qeyd edək ki, dövlətin sosial sahədəki siyasəti ilə regional siyasəti vəhdət təşkil edir. Bu, özünü həm dövlətin sosial siyasətinin regionlara tətbiq olunmasında, həm də regional inkişafla bağlı qəbul edilmiş qərarların mühüm hissəsinin birbaşa sosial sahə ilə bağlı olmasında göstərir. Çünki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı aparılan işlərdə sosial infrastruktur sahələri aparıcı yeri tutur. [2, 371]

Sosial infrastruktur sahələrinin inkişafının hüquqi tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə reallaşır. Konstitusiyamızda dövlətin bu sahədəki rolunun tənzimlənməsi, eyni zamanda hakimiyyətin hər üç qolunun fəaliyyətinin nizamlanması müvafiq maddələrdə öz əksini tapmışdır. Belə ki, 16-cı maddədə dövlətin sosial inkişafın təminatçısı olduğu təsbit edilmişdir. Bu maddədə Azərbaycan dövlətinin hər bir vətəndaşın rifahının yüksəldilməsi, sosial müdafiəsinin qayğısına qaldığı, mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərdiyi qeyd edilmişdir. Bundan başqa, konstitusiyada sosial təminat (maddə 38), mədəniyyət (maddə 40), sağlamlığın qorunması (maddə 41), təhsil (maddə 42), yaradıcılıq (maddə 51) ilə bağlı məsələlər də vurğulanmışdır. [7]

Azərbaycanda sosial infrastruktur sahələrinin hüququ bazasını konstitusiyadan başqa, müvafiq sahələr üzrə olan qanunvericilik təşkil edir. Bunlardan təhsil, idman, əhalinin məşğulluğu, əmək, sosial təminat və digər sahələr üzrə olan qanunvericilikləri misal göstərmək olar.

Regionlarda sosial infrastruktur sahələrinin inkişafını yüksəltmək üçün dövlət tərəfindən bir sıra işlər görülmüşdür. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) həyata keçirilməsi nəticəsində 2003-cü illə müqayisədə 2008-ci ildə əhalinin gəlirləri 4 dəfə artmışdır. Əhalinin mənzil-kommunal problemlərinin həlli istiqamətində də irəliləyişlər əldə edilmişdir. Belə ki, 2004-2008-ci illərdə regionlarda istilik sisteminin yenidən qurulması ilə əlaqədar 75 yeni qazanxana tikilmiş və 72 qazanxana əsaslı təmir olunmuşdur. [8]

2004-2008-ci illərdə su və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi məqsədilə müvafiq layihələr, o cümlədən Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi, Gəncə, Şəki, Ağdaş və Göyçay şəhərlərinin, habelə ölkədəki kiçik şəhərlərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı işlər həyata keçirilmişdir. Qeyd edək ki, Oğuz-Qəbələ-Bakı su kəmərinin inşası mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu su kəməri istifadəyə verildikdən sonra Oğuz və Qəbələ ərazisindəki yeraltı su mənbələri hesabına Bakı şəhərinə saniyədə 5 kubmetr həcmində su nəql edilir ki, bu da əhalinin yüksək keyfiyyətli su ilə təmin olunmasına şərait yaradır. [6]

Nəqliyyat sistemi də 2004-2008-ci illərdə inkişaf etdirilmişdir. Göstərilən illər ərzində regionlarda 1000 km-dən çox magistral yol çəkilmiş və ya əsaslı təmir edilmiş, 600 km respublika əhəmiyyətli və 2700 km yerli əhəmiyyətli yollarda təmir işləri aparılmış, 69 yeni körpü tikilmiş, 34 körpü təmir edilmişdir. Son beş il ərzində Naxçıvan, Gəncə, Lənkəran və Zaqatala şəhərlərində müasir standartlara uyğun yeni hava limanları tikilərək istifadəyə verilmişdir. “Regionların sosial-iqtisadi inkişafı (2009-2013) Dövlət Proqramı”nda da nəqliyyatın inkişafı diqqət mərkəzində saxlanılmışdır. Bu dövlət proqramının icrasından sonra nəqliyyat sahəsində 2,5 dəfə artım olmuşdur.

Nəqliyyat sahəsində beynəlxalq əlaqələr də genişlənmiş, xüsusilə də dünyada enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın verdiyi töhfələr bu baxımdan əhəmiyyətinə görə seçilməkdədir. Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri, o cümlədən, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti, Bakı-Tbilisi-Qars dəmir yolunun, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla həyata keçirilmişdir. [1,130]

Hər iki Regional İnkişaf Dövlət Proqramlarının icrası çərçivəsində son 10 il ərzində 8,3 min kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolları tikilmiş və ya təmir olunmuş, regionlarda 307 yeni körpü və yol ötürücüsü tikilmiş və ya təmir edilmiş, Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala, Qəbələ və Yevlax şəhərlərində hava limanları istifadəyə verilmişdir. Bununla yanaşı, nəqliyyatın hərəkətinin tənzimlənməsi və idarə olunması məqsədilə Bakı şəhərində Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi təsis edilmişdir. [1, 180]

2020-ci ilin sonu üçün statistik məlumatlara görə, ölkə üzrə avtomobil yollarının uzunluğu 16630 km olmuşdur ki, bunun da 16491 km-i regionların payına düşür. 2020-ci ilin sonuna kimi istifadədə olan avtomobil yollarının uzunluğu regionlar üzrə aşağıdakı cədvəldə əks edilmişdir: [6]

| | Cəmi, km |
|---|---|
| Ölkə üzrə | 16 630 |
| Bakı şəhəri | 139 |
| Naxçıvan Muxtar Respublikası | 1 473 |
| Abşeron-Xızı iqtisadi rayonu | 435 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1 337 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 1 145 |
| Qarabağ iqtisadi rayonu | 1 297 |
| Qazax-Tovuz iqtisadi rayonu | 1 459 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 1 762 |
| Lənkəran-Astara iqtisadi rayonu | 1 979 |
| Mərkəzi Aran iqtisadi rayonu | 1 802 |
| Mil-Muğan iqtisadi rayonu | 1 082 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 1 810 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | - |
| Şirvan-Salyan iqtisadi rayonu | 910 |

Nəqliyyat üzrə əsas makro göstəricilərə diqqət yetirsək, məlum olur ki, nəqliyyat sahəsində əsas kapitala qoyulmuş investisiyalar ildən-ilə artmışdır. Müqayisə üçün qeyd edək ki, 2003-cü ildə bu göstərici 339 milyon manat idisə, artıq 2020-ci ildə 2 092 milyon manata çatmışdır.

Nəqliyyatın inkişafı digər regionların inkişafı dövlət proqramlarının da aparıcı istiqamətlərindən biri olmuş, buna müvafiq işlər görülmüşdür. Nəqliyyat sektorundakı işlərin davamı olaraq 2018-ci il may ayının 14-də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi istifadəyə verilmişdir. Qeyd edək ki, bu liman kompleksi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsinə görə mühüm əhəmiyyətə malikdir. Hələ də 2019-2023-cü illəri əhatə edən regionların inkişafı dövlət proqramının icrası davam etdiyindən bu istiqamətdə işlərin icrası da davam edir.

Bu Dövlət Proqramının icrası nəticəsində regionlarda inkişaf etmiş infrastruktur sahələrindən biri də əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması olmuşdur. Belə ki, təbii qazla təchizatın yaxşılaşdırılması sahəsində görülmüş işlərin nəticəsi olaraq 13 illik fasilədən sonra Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa olunmuş, Lerik, Yardımlı rayonları və Füzuli rayonunun Horadiz şəhəri ilk dəfə, habelə, Ağcabədi, Beyləqan rayonları, Ağdam rayonunun Quzanlı qəsəbəsi və s. rayonlar təbii qazla təmin edilmişdir. Bu proses növbəti regionların inkişaf proqramlarında da mühüm istiqamətlərdən birini təşkil etmiş və bu sahədə işlər davam etdirilmişdir. 2003-2013-cü illərdə regionlarda ümumi gücü 2000 meqavatta yaxın 17 elektrik stansiyası tikilərək istifadəyə verilmişdir. Təbii qazla təchizatın yaxşılaşdırılması sahəsində də mühüm uğurlar əldə edilmişdir. Belə ki, qaz xətlərinin çəkilişi və bərpası davam etdirilmiş, nəticədə yaşayış evlərinin qazlaşma səviyyəsi 34%-dən 83,4%-ə

qalxmışdır. [7]

2004-2008-ci illərin hüdudlarında sosial təminat sahəsində də mühüm irəliləyişə nail olunmuşdur. Belə ki, əlillərin və xüsusilə də şəhid ailələrinin mənzil şəraiti yaxşılaşdırılmış, əlillər üçün bərpa mərkəzlərinin yaradılması istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür. Qeyd olunan müddət ərzində regionlarda 7 ədəd əlillərin bərpa mərkəzi inşa edilmiş, eləcə də, əlillər və şəhid ailələri üçün 33 yaşayış binasi istifadəyə verilmişdir. Əhalinin sosial təminatının yaxşılaşdırılması və regionlararası fərqi aradan qaldırmaq üçün digər dövlət proqramlarında da müəyyən işlər nəzərdə tutulmuş və tədbirlər həyata keçirilmişdir. [3, 530]

Aztəminatlı ailələrin maddi vəziyyətinin yaxşılaşdırılması üçün ünvanlı sosial yardımların verilməsinə başlanmış, bunun nəticəsi də səmərəli olmuşdur. Belə ki, 2005-ci ildə “Ünvanlı dövlət sosial yardımı haqqında” Qanun qəbul edilmişdir. Bu qanuna müvafiq işlər görülmüşdür. Hazırda da ünvanlı sosial yardım ölkəmizdə tətbiq edilir. Qeyd edək ki, ünvanlı sosial yardımın verilməsində əsas məqsəd yoxsulluğun azaldılması, aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsidir. Ünvanlı sosial yardımın tətbiq edilməsi ilə müsbət nəticələr əldə edilmişdir. Belə ki, ünvanlı sosial yardımın verilməyə başlandığı 2006-cı ildə yoxsulluq səviyyəsi 20,8% idisə, 2016-cı ilin yanvar ayı üçün bu göstərici 4,9% olmuşdur.

Bu sosial yardım əsasən, regionlara geniş tətbiq edilmişdir. Belə ki, 2021-ci il üzrə statistik göstəricilərə əsasən, ölkədə ünvanlı dövlət sosial yardımı alan 77269 ailədən 69554 ailə regionların payına düşür. Qeyd edək ki, cəmiyyətin sosial-iqtisadi inkişaf göstəricilərinə uyğun olaraq, 1 nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımının məbləği ildən-ilə artırılmışdır. Əgər 2009-cu ildə 1 nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımının məbləği 22 manat təşkil edirdisə, 2021-ci ildə bu rəqəm 57 manata çatmışdır.[6]

Regionlarda əhaliyə göstərilən sosial və digər xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması üçün də bir sıra mühüm işlər görülmüşdür. Bunlardan ən əhəmiyyətlisi ASAN xidmət mərkəzlərinin yaradılması olmuşdur. ASAN xidmət mərkəzlərinin əksər regionları əhatə etməsi əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından və bir çox neqativ halların qarşısının alınmasında mütərəqqi əməllərdən biridir.

Təhsil sahəsinin regional inkişafının təmin edilməsi də Dövlət proqramlarının prioritet istiqamətlərindən biri olmuşdur. Bəhs olunan regionların inkişafı ilə bağlı dövlət proqramlarında əsasən, təhsil ocaqlarının tikintisinə, onların maddi-texniki bazasının müasir tələblərə uyğun qurulmasına xüsusi diqqət yetirilmiş, bu istiqamətdə əməli tədbirlər görülmüşdür. 2004-cü ildə ilk Dövlət Proqramının qəbulundan ötən beş il ərzində regionlarda 636 yeni məktəb tikilib istifadəyə verilmiş, o cümlədən, 192 məktəb əsaslı təmir olunmuşdur. Qeyd edək ki, təkcə Heydər Əliyev Fondunun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində 238 məktəb binası tikilmişdir. Təhsilin inkişafı ilə bağlı müəyyən tədbirlərin həyata keçirilməsi digər dövlət proqramlarında da nəzərdə tutulmuşdur. 2003-2013-cü illərdə təhsil infrastrukturunun inkişafı sahəsində 2708 məktəb tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Təhsilin inkişafı ilə bağlı 2009-cu ildə yeni qanun qəbul edilmiş, Azərbaycan Boloniya təhsil sisteminə qoşulmuşdur. Bununla əlaqədar olaraq, həm kurikulum, həm də müəllimlərin ixtisasartırması təlimlərinin reallaşdırılması üçün Təhsil Sahəsinin İnkişafı üzrə layihə reallaşdırılmışdır. Bu layihənin əsas məqsədlərindən biri ümumtəhsil məktəbləri üzrə təlim ilə tədris vəziyyətinin yaxşılaşdırılmasından ibarətdir. 25 milyon dollarlıq məbləğ Beynəlxalq İnkişaf Assosiasiyasının güzəştli krediti, 20.4 milyon isə Azərbaycan Respublikasının payına düşən layihənin ümumi dəyəri 45.4 milyon dollar təşkil edir. [1, 105]

Rəsmi statistik məlumatlara əsasən, ölkədə təhsil alanların sayı get-gedə artmışdır. Ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı aşağıdakı qrafikdə göstərilmişdir. [6]

Regionlarda ali təhsil ilə orta ixtisas təhsil müəssisələrinin fəaliyyəti regional inkişafa təkan verən amillərdən biri olmuşdur. Nəinki regionlarda, təhsilin inkişafı hər bir dövlətin, eləcə də, cəmiyyətin gücünün göstəricisidir. Təhsilin inkişafı sonuncu regionların inkişafı ilə bağlı verilmiş 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramında da mühüm istiqamətlərdən birini təşkil edir.

Burada xüsusilə, regionlarda təhsilin inkişafı üçün işlərin sürətləndirilməsi nəzərdə tutulmuşdur. Görülməsi planlaşdırılan tədbirlərdən biri də təhsilin inkişafı məqsədilə mütəxəssislərin regionlara cəlb olunması üçün onların mənzil və ya fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi ilə təminatı istiqamətində tədbirlərin görülməsidir.




Təhsil ilə yanaşı elmin inkişafının regionlara tətbiq olunması da mühüm məsələlərdən biridir. Bu istiqamətdə müvafiq işlər görülsə də, ölkəmizdə elm sahəsi üzrə əsas göstəriciləri nəzərdən keçirdikdə heç də xoş olmayan mənzərə yaranır. Belə ki, regionlar üzrə bu göstərici aşağı səviyyədədir. Bunu statistik göstəricilərə baxdıqda da aydın müşahidə etmək olur. Belə ki, əsasən, elm sahəsi Bakı şəhərində cəmlənmişdir. Azərbaycan Respublikasının şəhər və rayonları üzrə tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayına diqqət yetirsək, 2020-ci ildə ölkə üzrə 127 belə təşkilatdan 95-i Bakı şəhərində yerləşir. Qalanları isə regionlar üzrə paylanmışdır. Bu da elm sahəsinin regionlarda inkişafını təmin etmək üçün daha mütərəqqi və sistemli addımların atılmasını tələb edir. [3, 531]

Azərbaycanda səhiyyənin inkişafı da həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən olaraq daim dövlətin diqqət mərkəzində olmuşdur. Əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması üçün tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Regionlarda bir çox səhiyyə müəssisələri inşa edilmiş, müasir tibbi ləvazimat və avadanlıqlarla təchiz olunmuşdur. [5, 201] Bunlardan Lənkəran, Qazax, Zaqatala, Bərdə, Qəbələ rayonlarında, Gəncə, Naxçıvan və Şirvan şəhərlərində yeni müasir müalicə-diaqnostika mərkəzlərinin fəaliyyətə başlamasını, Sumqayıtda “Real-Med” diaqnostika sağlamlıq mərkəzi, Xaçmazda “N-KAY M Klinik” özəl klinikası, Sabirabadda “Muğan” klinikası, Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda Mərkəzi xəstəxana, Babək rayonunda “Duzdağ” Fizioterapeya mərkəzi və s. səhiyyə obyektlərinin tikilib istifadəyə verilməsini göstərmək olar. Bundan başqa, 2008-ci ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan bütün müalicə-profilaktika müəssisələrində rəsmi olaraq pullu xidmətin ləğv edilməsi əhalinin sağlamlığının qorunması sahəsində çox mühüm nailiyyətlərdən biridir.

2021-ci ilin əvvəlinə ölkənin şəhər və rayonları üzrə səhiyyənin əsas göstəriciləri aşağıdakı cədvəldə göstərilmişdir: [6]

| | Həkimlərin sayı, nəfər | Əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı | Orta tibb işçilərinin sayı, nəfər | Əhalinin hər 10000 nəfərinə düşən orta tibb işçilərinin sayı | Xəstəxanaların sayı | Əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı |
|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası - cəmi | 31815 | 31,8 | 54786 | 54,8 | 518 | 1723 |
| Bakı şəhəri - cəmi | 20734 | 90,1 | 22737 | 98,8 | 161 | 295 |
| Naxçıvan Muxtar Respublikası - cəmi | 769 | 16,7 | 2 356 | 51,0 | 29 | 115 |
| Abşeron-Xızı iqtisadi rayonu - cəmi | 1745 | 30,1 | 2993 | 51,7 | 26 | 55 |
| Dağlıq Şirvan iqtisadi rayonu - cəmi | 304 | 9,4 | 963 | 29,7 | 5 | 61 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu - cəmi | 1395 | 22,8 | 3402 | 55,7 | 33 | 86 |
| Qarabağ iqtisadi rayonu - cəmi | 849 | 10,7 | 3143 | 39,6 | 65 | 196 |
| Qazax-Tovuz iqtisadi rayonu | 1004 | 14,6 | 3361 | 48,9 | 37 | 150 |
| Quba - Xaçmaz iqtisadi rayonu | 710 | 12,7 | 1866 | 33,4 | 11 | 97 |
| Lənkəran - Astara iqtisadi rayonu - cəmi | 914 | 9,6 | 2931 | 30,7 | 40 | 179 |
| Mərkəzi Aran iqtisadi rayonu - cəmi | 1085 | 14,7 | 3238 | 43,8 | 12 | 85 |
| Mil-Muğan iqtisadi rayonu - cəmi | 414 | 7,9 | 1 465 | 28,0 | 24 | 98 |
| Şəki - Zaqatala iqtisadi rayonu - cəmi | 1033 | 16,4 | 3452 | 54,8 | 10 | 106 |
| Şərqi Zəngəzur iqtisadi rayonu - cəmi | 143 | 4,3 | 622 | 18,6 | 46 | 115 |
| Şirvan-Salyan iqtisadi rayonu - cəmi | 716 | 14,3 | 2257 | 45,0 | 19 | 85 |

Səhiyyə sahəsi üzrə inkişafa nail olmaq üçün regionlararası fərqləri tənzimləmək lazımdır. Regionlarda səhiyyənin inkişafını hər bir iqtisadi region üzrə indiki və gələcək inkişafı, səhiyyə xidmətləri və həkimlərə olan tələbatı əsas götürməklə nizamlamaq mümkündür.

Regionlarda idman sahəsinin inkişaf etdirilməsi də dövlətin regional siyasətində sosial sahələrin inkişafının mühüm tərkib hissələrindən biridir. İdman sahəsinin inkişafı dövlətin gənclərlə bağlı həyata keçirdiyi siyasətin də mühüm tərkib hissəsini təşkil edir. [4, 289] Belə ki, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı aktual istiqamətlərdən birini təşkil edir. 2004-2008-ci illər ərzində regionlarda 18 müasir olimpiya kompleksi tikilib istifadəyə verilmişdir. Bu proses növbəti illərdə də müvafiq dövlət proqramlarına əsasən davam etdirilmiş və uğurlu nəticələr əldə edilmişdir. 2003-2013-cü illərdə regionlarda 41 olimpiya idman kompleksi, eləcə də, 250-dən çox idman və gənclər obyekti istifadəyə verilmişdir. [1, 195]

Respublikada əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən biri də ölkədə ekoloji tarazlığın qorunmasıdır. Bundan irəli gələrək regionlarda ekoloji sərvət hesab

edilən təbiət ərazilərinin mühafizə edilməsi ilə bağlı bir sıra işlər həyata keçirilmişdir. 2003-cü ildən başlayaraq müəyyən dövlət qoruqları və milli parklar yaradılmışdır ki, bunlardan Eldar şamı, Korçay dövlət təbiət qoruqlarını, Abşeron, Ağgöl, Göygöl, Şahdağ, Şirvan, Akademik Həsən Əliyev adına Zəngəzur, Hirkan, Altıağac və Samur-Yalama milli parklarını göstərmək olar. Göstərilən 10 il ərzində xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 478 min hektardan 893 min hektaradək artırılmışdır. Bundan başqa, Heydər Əliyev Fondunun “Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası” layihəsi çərçivəsində 130 baş ceyran tarixi ərazilərə buraxılmışdır. Dövlətin ekologiya sahəsində gördüyü tədbirlərin davamı olaraq 2010-cu il “Ekologiya ili” elan edilmişdir. [8] Bu il ərzində əhalinin təmiz su ilə təminatı ilə bağlı modul tipli sutəmizləyici sistemlər yenilənmişdir. Bunlardan biri də Hövsan aerasiya stansiyasının yenidən qurularaq istifadəyə verilməsidir.

### *Nəticə*

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarında əhalinin sosial rifahının yaxşılaşdırılması, sosial infrastruktur sahələrinin inkişafı ilə bağlı müəyyən tədbirlər planının icrası nəzərdə tutulmuşdur. Nəzərdə tutulan işlərin həyata keçirilməsi nəticəsində bir çox nailiyyətlər əldə edilmişdir.

### ƏDƏBİYYAT

1. Aras, O.N., Süleymanov E. Azərbaycan iqtisadiyyatı. Bakı, “Şərq-Qərb”, 2010, 327 s.
2. Allahverdiyev, H.B., Qafarov, K.S., Əhmədov, Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, 2006, 834 s.
3. Mahmudov, M.M., Mahmudova, İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2011, 370 s.
4. Məmmədov, M.X. Regional konseptual inkişaf: iqtisadi-ekoloji problemlər. Bakı, “Elm”, 2014, 376 s.
5. Nuriyev, Ə.X. Regional siyasət və idarəetmə, Bakı, 2004, s.289.
6. https://www.stat.gov.az/source/regions/
7. http://www.e-qanun.az/
8. https://president.az/

***Джамила Эльчин кызы Гулиева***
***Бакинского Государственного Университета***
***Факультет международных отношений и экономики***
***магистрант II курса***
***calalzadecamila@gmail.com***
***Научный руководитель: проф. M.R.Тагиев***

## Развитие социальной инфраструктуры в регионах

### *Резюме*

**Цель исследования** – проанализировать направления развития социальных сфер в регионах, полученные результаты, определить перспективы на будущее.

**Методика исследования** – при исследовании предмета использовались такие методы, как статистический, анализ, сравнение, интерпретация, обобщение, систематизация.

**Прикладная значимость исследования** – анализ приведенных здесь фактов, выводы и обобщения могут быть использованы в дальнейшем при составлении написанных статей, монографий и учебников, реализации мероприятий по развитию регионов, разработке

программ и концепций. В то же время для тех, кто хочет проводить исследования в этой области, руководящая роль может проснуться.

**Результаты исследования** – принятые государственные программы социально-экономического развития регионов предусматривают реализацию определенного плана мероприятий по улучшению социального благосостояния населения, развитию социальной инфраструктуры. В результате осуществления намеченных работ было достигнуто много достижений.

**Оригинальность и научная новизна исследования** – Хотя существует ряд работ, статей, написанных о правовом регулировании народного хозяйства, фундаментальных работ, посвященных этой теме, нет. Несмотря на то, что в нашей республике имеются исследовательские работы, отражающие правовое регулирование различных отраслей экономики, социально-экономическое развитие регионов в целом проблематично и не является объектом исследования. Впервые эта тема исследуется комплексно на основе законодательной базы и статистического анализа.

***Ключевые слова: регионы, социально-экономическое развитие, государственная политика, социальная инфраструктура.***

***Jamila Elchin Guliyeva***
***Baku State University***
***Faculty of International Relations and Economics***
***Master's student of the II course***
***calalzadecamila@gmail.com***
***Scientific supervisor: Prof. M.R.Tagiyev***

## Development of social infrastructure in the regions

***Summary***

**The purpose of the study** is to analyze the directions of development of social spheres in the regions, the results obtained, to determine the prospects for the future.

**Research methodology-**in the study of the subject, such methods as statistical, analysis, comparison, interpretation, generalization, systematization were used.

**The applied significance of the research** is the analysis of the facts presented here, conclusions and generalizations can be used in the future when compiling written articles, monographs and textbooks, implementing measures for the development of regions, developing programs and concepts. At the same time, for those who want to conduct research in this area, a leadership role can wake up.

**The results of the study-**the adopted state programs of socio-economic development of the regions provide for the implementation of a specific plan of measures to improve the social welfare of the population, the development of social infrastructure. As a result of the implementation of the planned works, many achievements have been achieved.

**Originality and scientific novelty of the research-**Although there are a number of works, articles written on the legal regulation of the national economy, there are no fundamental works devoted to this topic. Despite the fact that there are research papers in our republic reflecting the legal regulation of various sectors of the economy, the socio-economic development of the regions as a whole is problematic and is not the object of research. For the first time, this topic is being investigated comprehensively on the basis of the legislative framework and statistical analysis.

***Key words: regions, socio-economic development, state policy, social infrastructure.***